## İnsan beyni piylənməni idarə edə bilir

Dünyanın sağlamlıq problemlərindən biri olan piylənmə ilə əlaqədar aparılan son araşdırma piylənmənin həqiqətən «beyində» bitirilə biləcəyinin mümkün olduğunu sübut etmişdir.

Elm adamları arzuolunmaz kökəlmənin idarə edilməsinə təsir göstərən iki hormonun əhəmiyyətini kəşf etmişlər. ABŞ-ın Miçiqan Universitetində aparılan araşdırmaya görə, bəzi insanların beyni iştahanı idarə edən hormonlara cavab vermir. Bu iki əhəmiyyətli hormondan biri «grehlin» hormonudur. Bu hormon maddələr mübadiləsini yavaşıdır və bədənin yağyandırma qabiliyyətini azaldır. İkinci və mütəxəssislərin daha çox üstündə dayandığı hormon isə «leptin» hormonudur.

Kökəlməni nəzarətdə saxlamaq üçün açar rolunu oynayan «leptin» hormonu beyinə davamlı aclıq siqnalı getməsinin qarşısını alır və daha çox kalori yandırılmasını təmin edir. Bundan əvvəlki araşdırmalarda «leptin» hormonu ifraz edən insanların çəkiləri ilə əlaqədar daha çox problem yaşadığı ortaya çıxmışdır. Artıq elm adamları «leptin» hormonunun beyinə çatana qədər ona təsirli olan bir qəbuledici kəşf etmişlər. Mütəxəssislərə görə, həddindən artıq çəkili insanlarda bu qəbuledicilər çatışmır. İrəli sürülən bu nəticələr piylənmə və hormonlarla əlaqəli xəstəliklərin müalicəsində əhəmiyyətli rol oynaya bilər.